## Yaddaşlarda yaşayanlar

**Unudulmaz şairimiz Məmməd Aslanla Azərbaycan Dövlət Televiziyasında birlikdə çalışmış, sıx ünsiyyətdə olmuşam. 1992-ci ildən 2010-cu ilədək “Ekran-efir” qəzetinin baş redaktoru işləyən söz sərrafı həm də uşaqlar üçün “Əkil-bəkil quş idi”, “Dərədən, təpədən” kimi gözəl verilişlərin müəllifi və aparıcısı olub.**

# Məmməd Aslan

*O çağlayan gur bulaqlar*
*Çağlar mənim ürəyimdə.*
*Neçə şirin xatirəni*
*Saxlar mənim ürəyimdə.*

Məmməd müəllimlə bağlı çoxlu şirin xatirələr mənim ürəyimdə iz salıb. O, adi bir proqram qəzetinə şairanə yanaşmaqla həftəlik ədəbi nəşrə çevirə bilmişdi. Arabir mənim də yazılarımı dərc edirdi. İkimiz də Sumqayıtda yaşadığımız üçün çox vaxt işə birlikdə gedib-gəlirdik. Yolboyu qafiyə yarışı keçirir, ən çətin sözlərin belə “qardaş-bacı”larını tapırdıq. Özü də misralar, beytlər şəklində.

Bir axşam da yola “nərdivan” qoymaq üçün dostumuz Bahadır Şəfinin adına qafiyələr dedik. Ağıla gələn bütün qafiyələr söylənəndən sonra tükəndik. Şair bir qədər fikrə getdi, sən demə, axtarışı davam etdirirmiş.” –Hə, tapdım, – dedi, - Bahadır, ay Bahadur, ta bəsdi, qırağa dur!”

– Qulaq qafiyəsidir, – dedim. Cavab verdi ki, ağız qafiyələri bitib də, neyləyək?

Yeri gəlmişkən, Məmməd Aslan nədənsə qulaq qafiyələrini zarafatla cığallıq adlandırırdı. Çox sevdiyi Məmməd Arazda belə “cığallıq”ların olduğunu deyir, tez də əlavə edirdi ki, amma hər kəs belə qafiyələri onun kimi ustalıqla işlədə bilmir.

...Bir dəfə necə oldusa, beş-altı gün onunla görüşə bilmədim. Üz-üzə gələndə qayıtdı ki, əvvəl özünü sevdirirsən, sonra da gözə görünmürsən, belə olmaz. Tərif söyləməkdə xəsis olan ustaddan bunu eşitmək xoş idi.

Kimsə onu cırnatmaq məqsədilə canidildən zəhmət çəkib hazırladığı “Dərədən, təpədən” verilişinin adını “Hətərən-pətərən” demişdi. Şair dərhal cavab vermişdi ki, yalnız nənədən, dədədən xəbərsiz, məmədən, pəpədən haramzadə olanlar belə deyə bilər.

...Şairin 60 illiyində kəlbəcərli dostları ona bir “Jiquli” avtomobili bağışlamışdılar. Özü sürə bilmədiyi üçün birgə çalışdığı yaxını, gənc Munis ona sürücülük edirdi. Qarlı bir gündə səhər işə gələndə Cuhut qəbiristanlığının böyründə maşın sürüşərək yüngülcə divara dəymişdi. Yanına gedib vəziyyəti ilə maraqlandıq. Dedi ki, şükür, yaxşı qurtardım. Munisi soruşduq. Dərhal üz-gözünü turşutdu: “O, Munis deyil, Minusdur, – dedi. – Elə elədi ki, maşının mən oturan tərəfi dəydi qəbiristanlığın divarına”. Hərəmiz bir yandan Munisin günahı olmadığını desək də, xeyri olmadı. Əlbəttə, bir-iki günə ağsaqqalın hirsi soyudu, yenə də Munisin sürücülük xidmətindən istifadə etməyə başladı.

Qeyri-adi yanaşmaları, söz oyunları vardı rəhmətliyin. Mənə bağışladığı kitablarından birində avtoqrafda yazmışdı: “Əli NƏCİBxanlıya”. Uşaqlar ona “səhv”ini deyəndə cavab vermişdi ki, bu, səhv deyil, yerinə düşən təhrifdir...

Xalq dilini, necə deyərlər, iliyinə qədər bilən Məmməd Aslanın heyrətamiz araşdırmaları olurdu. Ağac mövzusunda 500 səhifəlik kitab yazmışdı. Ömrünün son illərində isə söz haqqında böyük bir kitab hazırlayırdı. Mənə də demişdi ki, həmin kitab üçün sözlə bağlı şeir yazım. Mən həmin şeiri ona verəndə bəyənmiş və kitabına daxil eləmişdi. Rəssamlığı da vardı deyə, bir çox kitablarının səhifə haşiyələrini, bəzəklərini özü düzüb-qoşurdu.

Zəngin kitabxana yığmışdı. Hər bağışlanan kitabı da evinə aparmazdı. Bir dəfə kimsə ona şeir kitabı vermişdi. Çayxanada çantasından çıxarıb mənə uzatdı və dedi:

– İstənilən səhifəsini gözüyumulu aç, barmağını tuşla. Hansı bəndin üstünə düşsə, onu oxu.

Dediyi kimi elədim. Misralar heç xoşuna gəlmədi.

– Yox, bunu evə aparan deyiləm, - dedi. – Yerim yoxdur.

Bax, belə güzəştsiz adam idi Məmməd Aslan.

Mənsə bu gün də fəxr edirəm ki, ilk kitabım olan “Ürəyimi döyən həvəs”ə ön sözü məhz Məmməd Aslan yazıb.



**Əli NƏCƏFXANLI,**
**“Xalq qəzeti”**